# Mətbuat tariximiz - 150

# TARİXDƏ SÖZÜN İZİ

## Hacı Etibar Əhədovun «Lənkəranın mətbuat salnaməsi» kitabı üzərində düşüncələr



***Şəddat CƏFƏROV,***
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Son vaxtlar görkəmli, dünya şöhrətli yazıçı Çingiz Aytmatovdan qaynaqlanan belə bir fikir tez-tez yada salınır: Vətən insanın yaddaşı ilə bağlı olan məfhumdur. Həqiqətən şəxsin yaddaşı pozulursa, həyatın ötüb-keçən çağlarını düşüncəsində canlandıra bilmirsə, onun doğulub böyüdüyü, yaxud uşaqlıq, gənclik illərinin xatirələri ilə bağlı olan məkan da unudulmuş olur.

Mən Vətənini, yer-yurdunu tərk edib qürbətlərdə yaşamağa üstünlük verən adamları ittiham etməsəm də, onların doğma yerlərdən necə ayrı yaşaya bildiklərini tam təsəvvür edə bilmirəm. 30 illik məcburi köçkünlük, qaçqınlıq həyatı insanların düşüncəsinə, varlığına necə ağır zədələr vurub, bunu başa düşmək elə də çətin deyil.

Sənətkarlar, söz sahibləri, bir sözlə, bədii yaradıcılıq sahəsində çalışanlar yaratdıqlarının çox böyük əksəriyyətini Vətən obrazını canlandırmağa həsr edirlər. Şairlərin böyük ilhamla tərənnüm etdiyi Vətən məfhumu beləcə sözə çevrilərək müqəddəsliyini qoruyub saxlayır.

Bizim əslimiz Lənkəranla bağlıdır: Lənkəranın Gərmətük kəndi ilə bağlıdır desəm, doğru olar. Təsadüfi deyil ki, yaradıcılıqda keçən həyatımın mənalı çağları Lənkəranla, onun təbiəti, tarixi abidələri, qonaqpərvər insanları ilə bağlı olub həmişə. O yerlərin adamları bu gün də məni unutmur, mətbuat, nəşr sahəsində bir işləri olan kimi yada salırlar. Əlbəttə, mən də əlimdən gələn köməyi əsirgəmirəm.

Bu günlərdə tanınmış jurnalist-publisist, mətbuat tarixi üzrə araşdırıcı Hacı Etibar Əhədovun yeni kitabı nəşr üçün məlim əlimə gəldi. Kitabı çox maraqla oxudum. Ən əsası ona görə ki, bu kitabda obrazların zərgin qalereyası ilə qarşılaşdım. Onlarca yox, bəlkə də yüzlərlə adlar, ünvanlar sadalanır. Onların çox böyük əksəriyyətinin haqqında dolğun və əhatəli məlumatlar verilir. Ən əsası da odur ki, bu kitab mətbuat tariximizin Lənkəranla bağlı ən parlaq səhifələrini özündə ehtiva edib.

Hacı Etibar Əhədov məhsuldar qələm sahibidir. Jurnalistikada çoxdanın tanınmış simalarındandır. Demək olar ki, onun şüurlu həyatının hamısı bütövlükdə mətbuatla bağlı olub. Ən azı yaşadığı zamanın salnaməsi canlı olaraq onun gözləri önündən keçib. Bu da az vaxt deyil, 50 ildən çox bir zamanı əhatə edir. Beləliklə, qarşımızda yeni bir nəşr var: «Lənkəranın mətbuat salnaməsi». Elə bu günlərdə işıq üzü görüb. Mən təcrübəli naşir kimi kitabın nəfis şəkildə, yüksək poliqrafik üsulda nəşri üçün imkanlarımın hamısını sərf etdim. Bilirəm ki, bu kitab məhdud sahədə oxucular üçün deyil. Mətbuat tariximizin bütün araşdırıcıları dəyərli mənbə kimi bu kitaba mütləq müraciət edəcəklər. Belə düşünürəm ki, gələcək nəsillər bu tipli kitablar vasitəsilə keçmişin artıq dəyərə çevrilmiş hadisələrini yaddaşlarına yazacaqlar. Mütləq gələcəyin daha aydın, daha parlaq, mənəvi həyatının təminatında bu kitab da kifayət qədər əsaslı bələdçi olacaqdır.

Kitabın annotasiyasında qeyd olunanlar da fikrimə aydınlıq gətirməyə xidmət edir: *«Kitabda Lənkəran mətbuatının yaranması və inkişafından, müstəqillik dövründə qəzet və jurnalların nəşr tarixindən, jurnalist Hacı Etibar Əhədovun təsisçi və baş redaktor olduğu "Lənkəranın səsi" və "Aşkarlıq" müstəqil qəzetlərində istifadə edilmiş janr və forma zənginliyindən söhbət açılır. Kitabda Lənkəran mətbuatının tarixi, nəzəri və təcrübi məsələlərinə həsr edilmiş materiallar, dostlarının müəllif haqqında xatirələri də toplanmışdır».* Deməli bu kitabda mətbuat tariximizin Lənkəran səhifələri araşdırılıb. Mətbuatın Lənkəran mühitinə ayaq açması tarixi öyrənilib, ümumiləşdirilib, ayrı-ayrı qəzet və jurnalların nəşr tarixi haqqında çox maraqlı məlumatlar öz əksini tapıb mən qeyd etdim ki, Hacı Etibar Əhədov mətbuat sahəsində həmişə fəal olub. O, nəinki qəzet və jurnalda ardıcıl olaraq fəal iştirk edib. Özü də annotasiyada qeyd olunduğu kimi, müxtəlif qəzetləri də təsis edib.

Əlbəttə, hər bir təsis olunan qəzet canlı orqanizm kimi dünyaya gəlir. Müəyyən dövr üçün yaşam yolu keçir, müəyyən xidmət göstərir. İnsanların mənəvi mühitinin zənginləşməsində xüsusi rolu olur və nəhayət, müxtəlif səbəblərdən nəşrini dayandırır. Amma şüurlarda, düşüncələrdə tarixi əhəmiyyət kəsb edərək təsir gücünü qoruyub saxlayır.

Kitabda o qədər zəngin məlumatlar var ki, hətta bu məlumatların üzərindən sükutla keçmək belə çətin olur. Hacı Etibar Əhədov monoqrafiyanın girişində XIX əsrin axırlarından başlayaraq Qafqazdakı mətbuat oyanışının tarixinə nəzər salır - Zərdabini, sonra «Tərcüman»ı, «Şərqi rus»u yada salır, nəhayət, «Molla Nəsrəddin»in təsir dairəsi haqqında maraqlı məlumatlar verir. Vaxtilə rus dilində çıxan qəzetlərdə Lənkəran haqqında, bölgənin mədəni, mənəvi mühitinə dair ardıcıl dərc olunan xəbərlər, müxtəlif məzmunlu yazılar göstərir ki, bu ərazilər hələ o dövrdən hakimiyyət dairələrinin diqqət mərkəzində olub.

Nüfuzlu ictimai xadimlərin adlarını yada salan Əhədov yazır: *«Ədəbiyyatşünas İ.Yenikolopovun yazdığına görə, M.Səfiyev Zaqafqaziya şeyxülislamı, M,V,Axundovun dostu Molla Əhməd Hüseynzadə Salyaninin bacısı oğludur. O, ərəb, fars və rus dillərini mükəmməl bilmiş, XIX əsrin 50-ci illərində Lənkəranda yaşayıb işləmiş, 1869-1877-ci illərdə Bakıda quberniya idarələrində tərcüməçilik etmişdir. Teymurbəy Bayraməlibəyov Lənkəran qəzasının etnoqrafiyasına dair iki elmi əsərin müəllifidir. Etnoqrafik, tarixi və iqtisadi mövzularda 50-dən çox məqaləsi, topladığı əfsanə, nağıl və lətifələri "Kaspi" qəzetində, "Qafqaz tədris dairəsi" məcmuəsində dərc olunmuşdur. Dövrünün tanınmış ziyalılarından Mirzə İshaq Mövsümzadə, İsmayıl Qənbərli, Hüseyn Atakişiyev, Müzəffər Nəsirli kimi maarifpərvər ziyalılar da öz yazıları ilə siyasi və bədii fikrin inkişafına böyük təsir göstərmişlər».* Zənnimcə, müəyyən adlarla xatırlanan dövrü öyrənmək üçün bu müxtəsər qeydlərin də böyük əhəmiyyəti var. Çünki burada çəkilən adlar təsadüfi simalar deyil. Hər halda mən qeyd etməliyəm ki, Teymur bəy Bayraməlibəyovun böyük ziyalılıq xidməti danılmazdır, onun haqqında ilk dəfə əhatəli monoqrafiya yazmış professor Yədulla Ağazadənin xidmətlərini mütləq diqqətə çatdırmaq lazımdır.

Müəllif monoqrafiyada inqilaba qədər Lənkəranda çap olunan Azərbaycan və rus dillərində nəşr olunan mətbuat nümunələrinin adlarını yada salır və qeyd edir ki, həmin mətbuat orqanları qısa müddətli fəaliyyət göstərmişdir.

Aydın məsələdir ki, mətbuat sovet dövlətinin əlində xüsusi bir silah idi. Doğrudur, mətbuat xurafata, fanatizmə qarşı da mübarizə aparırdı. Əhalinin maariflənməsi yolunda misilsiz xidmətlər göstərirdi. Onu da qeyd etmək lazımdır ki, sovet dövləti cüzi fikir ayrılıqlarına görə ayrı-ayrı mübarizləri, cəmiyyətdə nüfuzu olan adamları məhv etmək üün mətbuatı siyasi alətə çevirirdilər.

Müəllifin qeyd etdiyinə görə Lənkəranda Azərbaycan dilində ilk çap edilən qəzet «Lətaif» olmuşdur. Yenə müəllif qeyd edir ki, bu barədə məlumatı mətbuat tarixinin araşdırıcılarından biri kimi tanınan Nazim Axundovun tədqiqatlarından əldə etmişdir. Hər halda məşhur Lənkəran qəzetinin tarixi ilə bağlı araşdırmalar da diqqətdən kənarda qalmır: «Lənkəranın ictimai-siyasi, iqtisadi həyatında xüsusi yeri olan indiki "Lənkəran" qəzeti 1931-ci ilin yanvarın 21-də "Qızıl Talış" adı ilə nəşrə başlayıb. İlk redaktoru Lənkəran rayon XDS icraiyyə komitəsinin sədri Böyükağa Mirsalayev olmuşdur. Çox keçməmiş o, repressiyaya uğramış, 20 may 1931-ci ildə Əli Razi Şəmsizadə qəzetin redaktoru təsdiq edilmişdir. Qəzet 5 dekabr 1931-ci ildən, 64-cü nömrədən "Siə Toloş" adı ilə Azərbaycan və talış dillərində buraxılmışdır». Əlbəttə, dövrün siyasi mühiti ilə bağlı olaraq Lənkəran qəzetinin də adı ayrı-ayrı vaxtlarda dəyişdirilmiş, müxtəlif orqanlara həvalə edilmiş və Hacı Etibar Əhədov dediyi kimi keşməkeşli yol keçmişdir. Nəhayət, müəllif «Lənkəran» qəzetinə rəhbərlik etmiş, mətbuat tariximizdə xüsusi yeri olan redaktorların adlarını sadalayır: *«Rəzzaq Kazımov (31.07.1931 - 06-02.1933), Əmrəli Mirzəyev (06.02.1933 - 15.05.1940), Əbil Fərəcov (15.05.1940 - 23.06.-1941), Rəcəbəli İsmayılov (23.07.-1941 - 23.08.1942), Qulam Məmmədov (23.08.1942 - 03.09.1951), İman Əliyev (03.09.1951 - 22.10.1951), Şükufə Qasımova (22.10.1951 - 08.04.-1953), Kərim Rzayev (08.04.1953 - 10.09.1958), Əliş Nəbili (10.09.1958 - 08.12.1961), Əyyub Rzayev (08.12.-1961 - 01.01.1962), Tofiq Həsənov (01.01.1962 - 03.07.1965), Nəcəf Şıxəliyev (03.07.1965 - 20.02.1971), Şəkər Aslan (20.02.1971 - 15.08.-1992), Etibar Əhədov (15.08.1992 - 15.12.1993), Həzi Əliyev (16.12.1993 - 19.11.2003), İltifat Əhmədov (20.11.2003 - 2017) qəzet redaktoru işləmişlər. 2017-ci il fevral ayından isə qəzetin rdaktoru Əlimərdan Əliyevdir».* Kiməsə elə gələ bilər ki, bu adlar sıradan olan nəfərlərin siyahısını təşkil edir. Amma unutmaq lazım deyil ki, onların hər biri qələmlərinə sədaqəti, kəskin ideoloji siyasi mübarizə illərində qoruyub-saxlamış, bütün varlıqları ilə cəmiyyətin həyatında qəzetin təsirinə nail olmağa çalışmışlar. Onların həyatları heç də rəvan olmayıb. İdeoloji basqı mühitində adi bir qəzet xətası da siyasi təxribat kimi qiymətləndirilir, adamları asanlıqla repressiya edirdilər. Məhz buna görə də mən həmin redaktorların gördükləri işi özlərinin fədakarlıqları ilə daha çox bağlayıram.

***(Davamı 11-ci səhifədə)***

*(Əvvəli 10-cu səhifədə)*

Mətbuatla bağlı olan hər kəs yaxşı bilir ki, qəzet böyük zəhmətin sayəsiqndə başa gəlir. Mən elə bu gün də qəzeti canlı orqanizm hesab edirəm. Burada çalışan jurnalistlər əsl fədakarlıq obrazlarıdır. Amma qəzetin texniki sahəsinin işçiləri də sözün həqiqi mənasında çox böyük əzablar bahasına çalışıblar. Həyat üçün zərərli olan mühitdə çalışan texniki işçilər demək olar ki, cüzi əmək haqqı alırdılar. Amma onlar öz işlərini həyatlarının mənası bilir, bilik və bacarıqlarını da yeni nəslə öyrətməkdən usanmırdılar.

mur, heç nə yaddan çıxmır. Bəli, hörmətli oxucu indii «Qəzetə kadr ehtiyatı kimi baxılırdı» başlığı altında təqdim olunan adlar qalereyasını sən özün də təəssüratlı duyğularla seyr et. Bəlkə, bu adlardan bir çoxunu sən də, qeyrisi də tanıyır, yaxud kimlərinsə hansı yollardan keçdiyini məhz bu mətn vasitəsilə daha yaxından öyrənə bilərsən. Çünki hər bir ad özündə müəyyən şəxsiyyətin mahiyyətini ehtiva edir, ad bizə ünvan olur. Həmin şəxsiyyət haqqında daha geniş bilgi almaq üçün əlavə təşəbbüslərə bizi sövq edir. Beləliklə, buyurun, oxuyun və düşünün. Əlbəttə, "Lənkəranın mətbuat salnaməsi" kitabının özündən. Ancaq çox kimi qəzetlər indi də unudulmayıb və bəziləri fəaliyyətini davam etdirməkdədir.

Hacı Etibar Əhədovun «Lənkəranın mətbuat salnaməsi» monoqrafiyasının ikinci bölməsi «Lənkəranın səsi» adlanır. Məlumdur ki, bu qəzet nəşrə başlayanda çox populyar olub. Həmin qəzetin təsisçisi və baş redaktoru elə Hacı Etibar Əhədov özü olmuşdur. Müəllif bu bölmədə «Lənkəranın səsi» qəzetinin hansı zərurətdən yarandığını, tarixini, ictimai-siyasi həyatın, sosial mühitin problemlərini bu qəzet vasitəsilə ictimailəşdirir, gündəmə gətirir və bir çox problemlərin həllinə nail olmağa çalışırdı.

Müəllif qəzetdə dərc olunan yazıların forma və janr məsələlərinə də tədqiqat xarakterli qeydlər həsr edib. O, bu sahədəki tədqiqatlarını «Qəzet janrları və onlara verilən tələblər» başlığı altında ümumiləşdirməyə çalışmışdır. Bu qeydlər belə bir məzmunu ehtiva edir ki, hər bir qəzet ümumi mətbuatın bir hissəsidir. Klassik dəyərlərin qorunması ilə ərsəyə gələn yazılar dəyər olaraq cəmiyyətin mənəvi mühitində xüsusi rol oynayır.

Bundan sonra müəllif ayrı-ayrı janrların da təhlilinə keçir. Hansı janrda hansı müəlliflərin daha çox uğur qazandıqlarını üslubuna uyğun olaraq təhlil edir və diqqətə çəkir.

# TARİXDƏ SÖZÜN İZİ

## *Hacı Etibar Əhədovun «Lənkəranın mətbuat salnaməsi» kitabı üzərində düşüncələr*

Lənkəranda mətbuatın tarixi çapxanaların tarixi ilə çox bağlıdır. Hacı Etibar Əhədov çapxanalarla bağlı qeydlərini elə «Lənkəranda çapxanalar vardı» adı ilə təqdim edir. Müəllif yazır: «İnqilabdan əvvəl ayrı-ayrı şəxslər tərəfindən Lənkəranda çapxanalar yaradılmışdı. Belə çapxanalar məhdud imkana malik olsa da, hər halda təməl qoyulmuşdu. 1918-ci ildə qvardiya polkovniki Miribəy Talışxanovun Veravul kəndində təşkil etdiyi çapxanası Şivkünovun ermənilərdən təşkil olmunmuş quldur dəstəsi tərəfindən dağıdılmış, evdəki kitablara isə od vurulmuşdur. Özünə də aman verilməmiş, vəhşicəsinə qətlə yetirilmişdir». Hörmətli oxucu, bu qeydlərə yaxşı diqqət etdinmi? Əsl bir romanın mövzusudur. Ermənilərin vəhşilikləri nəinki insanları qətlə yetirməklə bitmir, hətta maarif ocağı olan qəzetlərə və onların çapxanalarına da dağıdıcılıqları ilə fərqlənirdi. Bu yerdə Qarabağı 30 il işğalda saxlamış olan erməni quldurlarının əməlləri gözlərimizin önündən keçir. Saysız-hesabsız tarixi, dini abidələr dağıdılıb, şəhərlər, kəndlər yerləyeksan edilib, hətta bu gün də layiqli cavab almalarına baxmayaraq, qisasçılıq hissindən əl çəkmirlər.






«Lənkəranın mətbuat salnaməsi» kitabında bir-birinin arxasında maraqlı səhifələr diqqətimizi cəlb edir. Bu qeydlərdən birinə müəllif belə bir ad verib. «Qəzetə kadr ehtiyatı kimi baxılırdı».

«Kredo» qəzeti ədəbiyyat tariximiz üçün, dilimiz, mədəniyyət salnaməmiz üçün nə qədər dəyərlidirsə, mətbuat tariximiz üçün də bir o qədər dəyərlidir. Düşünəndə ki, bu qeydlər «Kredo» qəzetinin səhifələrində gələcək nəsillərə ünvanlanacaq, bizdən uzaqlaşmış insanların adları bu qeydlər vasitəsi ilə bir-birini əvəz edən nəsillərin yaddaşına yazılacaq, istər-istəməz qürurlu duyğular qəlbimizə hakim olur. Müəllifin sonsuz fədakarlığı ilə arayıb-axtardığı insanların cəmiyyətə yenidən tanıdılmasını çox şərəfli iş hesab edirəm. Ona görə də adlar qalereyası kimi verilən bir parçanı ona görə bütöv təqdim edirəm ki, qoy hər kəs yaxşı bilsin və inansın ki, heç kim unudulistərdim ki, qəzet gələcək saylarında həmin mətni ayrıca nəşr edib oxuculara çatdıra. Həmin hissədə verilən adlardan bir çoxu bizim dövrümüzdə tanınmışları yada salır. Hətta bəziləri ilə bağlı maraqlı xatirələr də yaddaşımızda oyanır. Əslində, bu tipli qeydlər daha yeni tədqiqat işlərinin yazılmasına rəvac verir. Bir sözlə, cəmiyyət özünün mənəvi keçmişini araşdırmaq üçün belə xatirlanma yazılarından açar kimi istifadə edir.

Hacı Etibar Əhədov «Lənkəranın mətbuat salnaməsi» kitabında özünün şahidi olduğu, xatirəsində, yaddaşında qalmış olan məqamlara da xüsusi yer ayırır. «İllər tarixə dönür», «Məsul katibi niyə uzaqlaşdırdılar?», «Lənkəran, yaxud elin səsi», «Yaddan çıxmayan həqiqətlər» «Müstəqillik dövründə mətbuat» kimi yazılar diqqətimizi cəlb edir. Burada bir çox qəzet adları da tarixizlə bağlı maraqlı məqamları yada salır. Müstəqilik dövrünün ilk illərində maraqlı bülletenlər, müstəqil qəzetlər nəşrə başlayır «Şəm» bülleteninin nəşrində Hacı Mirsalam Babayev, Hacı Mirsayad Babayev, Hacı Mirhaşım Talışlı, Asif Cavadov, Səmədağa Səmədzadə... kimi ziyalıların fəallığını müəllif ayrıca qeyd edir. «Çeşmə», «Lənkəranın səsi», «Ailə», «Aşkarlıq», «Prizma», «Bizim təbib», «İstisu», «Söz», «Məşəl»

Müəllif həmin qəzetin ictimai mühitdəki həyat yolunu bu qəzetdə çalışan insanların kimliyini maraqlı və əhatəli detallarla təqdim edir. Və nəhayət, bölmənin axırında böyük Mirzə Cəlilin sözlərini yada salır: «Dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur. Zira ki, malmülk tələf olur gedir, amma söz qalır». Bəli, doğrudan da belədir. Zaman dəyişsə də, «Lənkəranın səsi» qəzetinin səhifələrində yer almış yazılar tariximizin və mətbuat salnaməmizin siması kimi özünü qoruyub saxlayır.

Müəllif üçüncü bölməni belə adlandırır - «Aşkarlıq» - otuz yaşlı qəzet». Məlumdur ki, bu qəzetində təsisçisi və baş redaktoru Hacı Etibar Əhədov özü olmuşdur. Müəllif «Aşkarlıq» qəzetinin məzmun və mahiyyət baxımından əhatə dairəsini «Qəzetin başlıca mövzuları» adlı tarixi tədqiqat qeydlərində əks etdirir. Əlbəttə, dəyişən zaman sözün həqiqi mənasında cəmiyyətlə açıq ünsiyyət tələb edirdi. Bu baxımdan Hacı Etibar Əhədov da nəşr etdiyi yazılarda baş verən olayların əsl mahiyyətini bütün aşkarlığı ilə oxuculara çatdırmaqdan çəkinmirdi. Maraqlıdır ki, müəllif həmin qəzetin ayrı-ayrı vaxtlarda xüsusi buraxılışlarını tanınmış ictimai-siyasi xadimlər, elm adamları Hüseynağa Qəniyev və Yaşar Rzayevə həsr etmişdir.

Əlbəttə, bu qəzetdə sosial həyat məsələləri, həmrəylik və polerantlıq, məktəb və təhsil, hərbi vətənpərlərlik məsələləri, Lənkəranın ədəbi mühiti, qəzetin şöbələri, müəlliflər, müxbirlər... bir çox digər ictimai məzmunlu sahələr kifayət qədər dəqiqliklə araşdırılır.

Kitabın dördüncü bölməsi «Yaddaşımda yaşatdıqlarım» adlanır. Biz bu bölmədə Mir Haşım Talışlının, Zəfər Orucoğlunun, Sevda Əlibəylinin portretləri ilə yaxından tanış oluruq. Kitabın beşinci bölməsi «Jurnalistikada keçdiyim yol» adlanır. Bu bölmədə də müəllifin maraqlı xatirələri toplanmışdır.

Hacı Etibar Əhədovun «Lənkəranın mətbuat salnaməsi» kitabının təkcə naşiri olmadım. Həm də bu kitabın redaktoru kimi məlumatların oxucuların diqqətinə xətasız çatmasına çalışdım.

Düşünürəm ki, hər kəs - yəni əli qələm tutan hər kəs həyatı ilə bağlı tədqiqat apara bildiyi dövrü hadisələri, əlbəttə, obyektiv yanaşma ilə yaza bilsə, yazdıqlarını tarixin xəzinəsinə daxil edə bilsə, ümumi vətənimiz üçün, xalqımız üçün görün necə böyük işlər görmüş olar.

Mədəniyyət tariximizin bütövlükdə və mükəmməl öyrənilməsi üçün görülən işlər, əslində, xalqımızın mənəvi birliyinə xidmət edir. Bu mənada Hacı Etibar Əhədovun bu tədqiqatını mən yüksək qiymətləndirirəm. İndi Lənkəranda kifayət qədər fəal ziyalılar mühiti yaranıb. Professorlar Yədulla Ağazadə, Əlirza Əliyev, Yazıçıların Lənkəran bölməsinin sədri yazıçı-publisist Qafar Cəfərli, şair-publisist Ağamir Cavad, və qeyriləri mənəvi mühitin zənginləşməsində kifayət qədər fəaldırlar.

Hər bir nəşr nümunəsi böyük Azərbaycan mədəniyyətinin ən üstün cəhətlərini özündə əks etdirən tarixi sənəddir. Elə bu qənaətimlə də Hacı Etibar Əhədovun monoqrafiyası ilə bağlı qeydlərimə yekun verdim.

İnanıram ki, Hacı Etibar Əhədov bundan sonra da uğurlu ədəbi-publisist yazıları və tədqiqatları ilə oxucularını sevindirəcəkdir.

***25.06.2025***